Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 38-39 (7443-7444) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə, 30 avqust 2017-ci il. ✲ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Avqustun 19-da Samux rayonunda səfərdə olmuş ölkə başçısı ümummilli lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, Zazalı-"İmamzadə" kompleksi-Gəncə avtomobil yolunun, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin birinci mərhələsi üzrə qurğular da daxil olmaqla 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində, Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux avtomobil yolunun istifadəyə verilməsində, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Samuxda inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etmiş, Samux Aqroenerji Yaşayış Kompleksi ilə tanış olmuşdur.

* * *

Prezident İlham Əliyev avqustun 20-də Gədəbəy rayonunda səfərdə olmuşdur.

Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, "Gədəbəy Mineral Suları" MMC-nin illik istehsal gücü 6 milyon litr olan limonad zavodunun, 110/35/10 kilovoltluq yeni "Gədəbəy" elektrik yarımstansiyasının, Heydər Əliyev Mərkəzinin, şəhərin içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.

* * *

Avqustun 20-də Şəmkir rayonunda səfərdə olmuş dövlətimizin başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, Şəmkirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə, Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olmuş, Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yolunun, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir üzrə idarəetmə və nəzarət mərkəzinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının, "Şəmkir Aqroparkı"nın Logistika Mərkəzinin açılışında iştirak etmişdir.

* * *

Dövlətimizin başçısı İlham Əliyev avqustun 21-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul etmişdir.

Prezident Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunda iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin başçılıq etdiyi, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq prezidentləri Rosen Plevneliev və Petar Stoyanov, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, İsrailin sabiq Prezidenti Dalia İtzik, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya və Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətinin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq aləmdə nüfuzunun getdikcə artdığı, tərəfdaşlarının çoxaldığı, fəaliyyət istiqamətlərinin genişləndiyi vurğulanmış və Mərkəzin gələcək fəaliyyəti ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Avqustun 23-də Prezident İlham Əliyev Bakının Xətai rayonundakı 257 nömrəli tam orta məktəbin əsaslı təmir edilən və yenidən qurulan mövcud binasında, həmçinin yeni tikilən korpusunda yaradılan şəraitlə tanış olub.

Yeni korpus Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planında təhsil sahəsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq inşa edilib. Burada 24 sinif otağı, 1 informatika kabineti, fizika, kimya və biologiya laboratoriyaları var. 672 şagird yerlik əlavə korpus təhsil ocağında birnövbəli dərs rejiminə keçməyə imkan yaradır. Yeni korpusun istifadəyə verilməsi ilə 257 nömrəli tam orta məktəb 1848 şagird yerlik olacaq. Müasir səviyyədə inşa edilən binada videomüşahidə və yanğın xəbərdarlığı sistemləri yaradılıb. Yeni korpus internet, mebel-inventar və digər zəruri avadanlıqla da təchiz edilib. Təhsil müessisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

* * *

Prezident İlham Əliyev avqustun 24-də UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın "Qarabağ" futbol klubunun heyətini qəbul edib.

Ölkə başçısı böyük qələbə münasibətilə «Qarabağ» futbol klubunun bütün heyətinə təşəkkürlərini bildirib, yeni uğurlar arzulayıb.

* * *

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub və növbəti "Tufan" tipli sərhəd gözətçi gəmisinin təməlini qoyub.

# Vətənə fədakar xidmət missiyası

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dərin məzmunlu nitqlərində deyirdi ki, mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz. İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, alicənab, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur.



Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, ulu öndərin ali ideyalarına tapınan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik, sosial tərəfdaşlıq və s. prinsiplərin möhkəmlənməsinə, milli özünəməxsusluğu şərtləndirən xüsusiyyətlərin qorunmasına çalışan Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ötən 13 ildə bu məqsədlərə xidmət edən strateji əhəmiyyətli layihələri inamla həyata keçirmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi də ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar olmuşdur. Cəmiyyətdə mütləq çoxluğun qənaəti bundan ibarətdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi son 13 ildə vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını inamla doğruldur.

Azərbaycanın Birinci vitse-prezidentinin 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, yenə də UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalına layiq görülməsi isə onun beynəlxalq nüfuzunun bariz təcəssümüdür.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il iyunun 29-da imzaladığı sərəncamla fondun prezidenti Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev ordeni" ilə təltif edilmişdir.

Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın siyasi-ictimai həyatında fəal rol oynamış, taleyüklü məsələlərinin həll edilməsinə sanballı töhfələr vermişlər. Çağdaş Azərbaycan qadını da təkcə ana deyil, o, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Bu gün xanım Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası bir daha aydın görünür.

Mehriban xanım Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət hər addımda ulu öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edir.

**«Qəbələ»**